

## Humanizm naminə

Son illərdə olduğu kimi, 2018-ci ildə də dünyada qlobal səviyyədə humanitar böhran və fövqəladə hadisələr baş vermişdir. Bu böhranlar nəticəsində milyonlarla insan evsiz-eşiksiz, qaçqın, miqrant vəziyyətinə düşüb digər ölkələrdə sığınacaq axtarmağa çalışmışlar, müxtəlif ehtiyaclara məruz qalmışlar. Belə bir şəraitdə biz bir daha tərkib hissəsi olduğumuz Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının güçünün və imkanlarının, eyni zamanda böhrana cavab verən ölkələrin xeyirxahlıq, bir-birinə çətin vəziyyətdən çıxış yollarının tapılmasında dəstək olmağa hazır olduqlarının şahidi olduq.

Baş vermiş hadisələr bir daha göstərdi ki, fövqəladə hadisələrə hazır olmaq üçün dinc şəraitdə bütün lazımı addımlar atılmalıdır. 2016-2020-ci illər Strateji İnkişaf Planında öz əksini tapmış bütün istiqamətlərdə hesabat dövrü üçün fəaliyyətlərimiz uğurla həyata keçirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti olaraq hər bir insana böhran, fövqəladə hal zamanı ehtiyaclara uyğun olaraq imkanlarımız daxilində hər zaman kömək etməyə çalışırıq. İstər ölkə daxilində yerli icmalara, istərsə də beynəlxalq səviyyədə ehtiyaclı insanlara müxtəlif resursları cəlb edib qərəzsiz dəstək verməklə, xeyirxah insanların gücünü səfərbər edərək humanizm naminə çalışırıq. Bizim müxtəlif fəaliyyət istiqamətlərimiz vasitəsilə (sağlamlıq və qayğı, fövqəladə hallara hazırlıq və cavabvermə, risklərin azaldılmasına yönəlmiş addımlar, miqrantlara dəstək, Fövqəladə Mobil Könüllü dəstələrin yaradılması, vərəmlə mübarizə və s.) insanların üzləşdikləri bir sıra çətinliklərin qarşısını almaq, onların müvafiq bilik və bacarıqlarını artırmaq, icma şəkilində formalaşıb fövqəladə hallar zamanı problemlərə, risklərə qarşı möhkəm olmaları istiqamətində bütün zəruri addımları atırıq. Buna ən bariz nümunə kimi prioritet saydığımız cəbhə xəttinə yaxın icmalarda Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən uğurla həyata keçirilən İqtisadi Təhlükəsizlik layihəsində möbil könüllü dəstələrimizin aparıcı rolu və icmalarda həyata keçirilən paylanış, qiymətləndirmə fəaliyyətlərində yaxından iştiraklarını göstərə bilərəm.

Hər il olduğu kimi apardığımız fəaliyyətlərlə yanaşı 2018-ci ildə də cəmiyyətimizin həyatında əlamətdar hadisələr baş vermiş və cəmiyyətimizin rəhbərliyi, katibliyi, aidiyyətli şöbələrin işçiləri müxtəlif mühüm beynəlxalq və ölkədaxili tədbirlərdə yüksək səviyyədə iştirak etmişlər. Mən bir sıra tədbirləri xüsusi olaraq qeyd etmək istəyirəm. 2018-ci il 2-4 İyul tarixlərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) Baş katibi cənab Elhac As Si Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Cəmiyyətimizin tarixində bu 2-ci dəfədir ki, Beynəlxalq Federasiyanın Baş Katibinin cəmiyyətə rəsmi səfəri təşkil edilmişdir. Səfər zamanı milli cəmiyyətlə əməkdaşlıq çərçivəsində humanitar sahədə gələcək perspektivlər müzakirə olunmuş, Azərbaycan Respublikasının Hökuməti, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında qurulmuş, mövcüd əməkdaşlıq münasibətlərinin daha da gücləndirilməsi məqsədilə üçtərəfli Anlaşma Memorandumu imzalanmışdır. Səfər zamanı Baş Katib bir sıra dövlət qurumlarının rəhbərləri ilə görüşlər keçirmiş,

aktual mövzular barədə müzakirələr aparılmışdır. 2018-ci il 25-26 oktyabr tarixlərində Birləşmiş Millətlər Təşkilatı Baş katibinin Yaxın Şərq və Mərkəzi Asiya regionları ilə humanitar əməkdaşlıq üzrə müavini cənab Rəşid Xalikov və Beynəlxalq Humanitar Forumun prezidenti cənab Hani El Banna cəmiyyətin Baş Qərargahına rəsmi görüşə gəlmişlər. Görüşlər zamanı AzQAC-ın fəaliyyəti haqqında məlumat verilmiş, Azərbaycanda humanitar sahənin inkişafına dair bir sıra məsələlər və gələcək perspektivlər, birgə əməkdaşlıq əlaqələri üzrə fikir mübadiləsi aparılmışdır.

İstər yerli, istərsə də beynəlxalq səviyyədə hər bir atılan xeyirxah addım əvəz olunmazdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti növbəti illərdə də öz mandat və missiyasına uyğun olaraq, gücünü səfərbər edərək humanitar fəaliyyətini davam etdirməyə hazırdır. **Yaxın gələcəkdə fondların arıtırlıması istiqamətdə fəaliyyətlərimizi genişləndirməklə həm yerli həm də beynəlxalq səviyyədə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının çağırışlarına cavab verməklə humanitar layihələrimizin sayını yüksəltmək tərəfimizdən hədəflənmişdir**. **Qeyd edilən fəaliyyətləri gücləndirmək və yardımlarımızın sayını və əhatə dairəsini genişləndirmək əzmindəyik.** Bu xeyirxah missiyamızı həyata keçirməkdə bizə yardımçı və köməkçi olan hər kəsə minnətdarlığımızı bildirir, onlara uğurlar və müvəffəqiyyətlər arzulayıram.



## Regional Mərkəz və yerli bölmələrlə iş

| MƏQSƏD | | |
|---|---|---|
| ***AzQAC-ın Komitələrinin, Regional Mərkəzlərinin, yerli bölmə və ilk təşkilatlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan humanitar fəaliyyətləri həyata keçirmək məqsədilə Milli Cəmiyyəti milli və beynəlxalq müstəvidə insanlara dəstək olan güclü humanitar təşkilata çevirmək.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | AzQAC-ın XXV Baş Məclisi ilə əlaqədar müşavirə keçirilmişdir. | Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti cənab Novruz Aslanovun sədrliyi ilə keçirilən müşavirədə AzQAC-ın Regional mərkəz koordinatorları və Bakı şəhər yerli bölmə sədrləri iştirak etmişlər.<br>İclasda 2018-ci il fevral ayının 28-də keçiriləcək XXV Baş Məclislə əlaqədar aparılan təşkilati işlər haqqında ətraflı məlumat verilmiş, Baş Məclisin keçirilməsinin AzQAC-ın fəaliyyətindəki tarixi önəmindən bəhs edilmiş və iştirakçılar Cəmiyyətin prezidentini XXV Baş Məclisin keçirilməsi |

| | | |
|---|---|---|
| | | prosesi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumatlandırmışlar. |
| **2.** | Fevral ayının 28-i Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) XXV baş məclisi keçirilmişdir | Şəhriyar adına Bakı Mədəniyyət Mərkəzində baş tutan tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev, dövlət və hökumət nümayəndələri, AzQAC-ın üzvləri iştirak etmişlər. Təşkilati məsələlərə baxılmış, AzQAC-ın yeni nizamnaməsi təsdiq olunmuş, Baş məclisin rəyasət heyəti, katibliyi, hesablama komissiyaları seçilmişdir. Gizli səsvermə nəticəsində AzQAC prezidenti,vitse-prezidentlər təyin edilmişdir .Baş Məclisdə üzvlük haqlarının artırılaraq 6 manat olması haqqında da qərar qəbul olunmuşdur. |
| **3.** | Regional Mərkəzlərdə zona müşavirəsi keçirilmişdir. | Mart və Avqust aylarında Sumqayıt və Bakı Regional Mərkəzlərində zona müşavirəsi keçirilmişdir.Müşavirədə koordinator, rayon və şəhər bölmə sədrləri iştirak etmişlər.Əsas mövzu olaraq üzvlərin sayının artırılması, bölmələrə yardım üçün müraciətlərin operativ cavablandırılması, yerli səviyyədə humanitar aksiyaların keçirilməsi tövsiyə olunmuşdur. |
| **4.** | Hər rübün sonunda Bakı və Sumqayıt Regional Mərkəzlərində rübün yekununa dair görüşlər. | Hər rübün sonunda Sumqayıt və Bakı Regional Mərkəzlərində sədrlərin 3 ay ərzində gördükləri işlərdən danışılmış, tapşırıqlar verilmiş və problemləri dinlənilimişdir |
| **5.** | Regional Mərkəz koordinatorları ilə görüşün keçirilməsi. | Təşkilat idarəsi rüblər üzrə Regional Mərkəz koordinatorları ilə mütəmadi olaraq görüşlər keçirmişdir.Bu görüşlərdə koordinatorların bölmələrdə görüşü, hər hansı bölmələrdə olan problemlər, icra orqanları ilə münasibətlərinin hansı səviyyədə olmasından danışılmışdır. Həmçinin, gündəlik təşkilati məsələləri diqqət mərkəzində saxlamaq bildirilmişdir. |
| **6.** | Yerli İcra Hakimiyyəti orqanlarına müvafiq məktublar və müraciətlər göndərilmişdir. | İcra Hakimiyyəti orqanlarına 50-dən artıq məktub göndərilmişdir. Məktubda üzvlük haqqının yığılması və ofis yerinin ayrılması barədə müraciət edilmişdir. |
| **7.** | AzQAC-ın bank hesabına yerli bölmələr tərəfindən köçürülən maliyyə planının rüblər üzrə təmin olunması. | Rayon bölmələri tərəfindən köçürülən maliyyə planlarına nəzarət edilmiş və vaxtında köçürülməsi təmin edilmişdir. |
| **8.** | Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyi tərəfindən yönləndirilən məktubların icrası həyata keçirilmişdir. | Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyi tərəfindən 10-dan çox məktub daxil olmuşdur. Məktub cəzaçəkmə müəssisələrində olan şəxsin ailə üzvləri tərəfindən göndərilmişdir. Rayon bölmə sədrlərinə bu barədə tapşırıq verilmiş, sədrlər tərəfindən araşdırılmış və lazımi tədbirlər görülmüşdür. |
| **9.** | AzQAC-ın Baş ofisində Milli Cəmiyyətin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanovun sədrliyi ilə İdarəetmə Şurasının ilk iclasında 2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə dair müzakirələr aparılmışdır. | AzQAC-ın Baş ofisində Milli Cəmiyyətin prezidenti Novruz Aslanovun sədrliyi ilə baş tutan İdarəetmə Şurasının ilk iclasında 2018-ci ilin yekunlarına dair müzakirələr aparılmışdır. İclasın gündəliyində Milli Cəmiyyətin əlavə və dəyişikliklər edilmiş yeni Nizamnaməsinin təqdimatı, İcraçı |

| | | |
|---|---|---|
| | | Katibin hesabatı, hesabat-seçki yığıncaq və konfranslarının təsdiqi və cari məsələlər öz əksini tapmış, həyata keçirilmiş və 2019-cu ildə görüləcək işlər barədə müzakirələr aparılmışdır. |
| **10.** | Rayon və şəhər bölmələri tərəfindən təşkil olunmuş humanitar aksiyalarda iştirak. | Novruz bayramı, Dünya azərbaycanlılarının həmrəylik günü, ahıllar günü münasibətilə keçirilmiş bayramlarda Bakı Regional Mərkəzinin bir çox rayon bölmələrində, həmçinin Sumqayıt şəhər bölməsində keçirilmiş tədbirlərdə verilmiş bayram sovqatlarının paylanılmasında iştirak edilmişdir |
| **11.** | Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş qərargahında tələbələrə istehsalat təcrübəsi ilə əlaqədar təlim keçirilmişdir | Mart, aprel, iyun və iyul aylarında Azərbaycan Dillər Universiteti, Qərb Universiteti  və Turizm Universitetinin tələbələri üçün Cəmiyyətin təşkilati inkişafı ilə əlaqədar məlumat verilmişdir. |
| **12.** | Yeni Regional Mərkəz yaradılmışdır. | İdarəetmə şurasının qərarına əsasən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 8-ci Regional Mərkəzi olaraq İsmayıllı RM yaradılmışdır. Regional Mərkəzə 9 rayon bölməsi daxildir: (İsmayıllı,Ucar,Ağdaş,Göyçay,Şamaxı,Ağsu,Qəbələ,Zərdab, Ağdam)Təşkilat İdarəsinin əməkdaşları yeni yaradılmış Regional mərkəzə səfər etmiş, yeni təyin olunmuş koordinatorun təqdimatı keçirilmişdir. |
| **13.** | Rayon və şəhər bölmələrinin maddi-texniki bazası gücləndirilmişdir. | 5 rayon bölməsi avtomobillə təmin edilmişdir. Nərimanov rayon bölməsi öz hesabına, Kəlbəcər rayon bölməsi isə Azərbaycan Dəmir Yolları ASC-nin dəstəyi ilə ofislər təmir olunmuşdur. |
| **14.** | 2018-ci ilin iyun-iyul aylarında Nizamnaməyə əsasən rayon bölmələrində hesabat-seçki konfransları keçirilmişdir. | Konfranslar  yüksək  səviyyədə təşkil olunmuş, eyni zamanda iclaslarda  RİH nümayəndələri, digər təşkilatların rəhbərləri iştirak etmişlər. Hesabat-seçki konfransı tam demokratik olaraq keçmiş, rayon və şəhər bölmə sədrləri, müavinlər səsvermə nəticəsində seçilmişdir. Həmçinin 2 rayon bölməsi yenidən təsis edilmişdir.(Cəbrayıl və Xocavənd) |



# Fövqəladə Hallara Hazırlıq və Cavabvermə

| MƏQSƏD | | |
|---|---|---|
| ***Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə, AzQAC-ın imkanlarını səfərbər edərək, insan həyatını xilas etmək, böhran və fəlakətlərdən sonra aparılan bərpa işlərində iştirak etmək.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | İl ərzində Respublika daxilində müxtəlif (zəlzələ, yanğın, sel-suların daşması və s.) fəlakətlərdən zərər çəkən insanlara ənənəvi qaydada humanitar yardımlar göstərilmişdir. | 2018-ci il ərzində AzQAC-ın FHHC şöbəsi tərəfindən Bakının Sabunçu, Yasamal və Suraxanı rayonları, İsmayıllı, Ağsu, Qusar rayonlarında müxtəlif təbii fəlakətlərdən zərər çəkmiş 10 ailəyə (46 nəfər) ümumilikdə 5195,37 AzN məbləğində ərzaq, qeyri ərzaq və çadırlardan ibarət humanitar yardım verilmişdir.<br>Rayon bölmələrinin potensialını gücləndirmək məqsədilə AzQAC mərkəzi anbarından İsmayıllı və Qusar rayon bölməsinə 5043,99 AzN məbləğində çadır və ədyallar verilmişdir;<br>Müraciət ilə BQXK-nə 133,40 AzN məbləğində çadır və ədyallar verilmişdir. |
| **2.** | Avstriya Qızıl Xaç Cəmiyyətinin və Avstriya İnkişaf Agentliyinin maliyyə və texniki dəstəyi ilə həyata keçirilən “Təhlükəsiz və möhkəm icmaların qurulması” layihəsinin ikinci mərhələsi çərçivəsində İsmayıllı və Qusar rayonlarının Kürdmaşı, Tircan, Sumağallı, Diyallı, Təzəkənd, Zərnava, Əniq və Kuzun kəndlərinin öncədən seçilmiş icmalarında zəruri işlər aparılmışdır. | -8 icma qrupu arasında (İlk Yardım, FH zamanı Risklərin azaldılması, İqlim Dəyişikliyi, Gender məsələləri, Fövqəladə Ailə Planlarının tərtib olunması) üzrə təlimlər keçirilmiş və nəticədə 96 nəfər maariflənmişdir;<br>-8 İcma qrupu lazımi avadanlıqla təmin edilmişdir;<br>-FHN və diqər aidiyyatı olan nazirliklər, İcra Hakimiyyəti, kənd bələdiyyələrinin, təhsil ocaqlarının rəhbərlərinin dəstəyi və beynəlxalq təşkilatların iştirakı ilə 8 simulyativ təlim-məşğələ təşkil edilmişdir;<br>-Ümumi maarifləndirmə tədbirləri nəticəsində 11667 nəfər əhatə olunmuşdur;<br>-Layihə çərçivəsində Gürcüstanın Tbilisi şəhərində təşkil edilmiş 3 toplantıda və konfransda AzQAC-ın iştirakı təmin edilmişdir;<br>-Müxtəlif mövzularda 13860 ədəd çap materialı və 3 video-çarx hazırlanmışdır. |

| | | |
|---|---|---|
| | | https://m.facebook.com/story.php?story_fbid=1781285708582991&id=100001047372054; http://az.redcrescent.az/news/post-7874.html<br>http://drr-southcaucasus.org/news/69/Simulation-exercise-in-Kurdmashi-village<br>http://www.fhn.gov.az/index.php?aze/news/tedbir/2018/5/8/27983/; https://sheki.arbtv.az/az/news/1752<br>http://drr-southcaucasus.org/news/76/Joint-Simulation-Exercise-with-MoES<br>http://az.redcrescent.az/news/post-8072.html; http://drr-southcaucasus.org/news/73/Simulation-exercise-in-Tirjan-village<br>http://az.redcrescent.az/news/post-8926.html; http://drr-southcaucasus.org/news/85/Joint-Simulation-Exercise-in-Gusar<br>http://az.redcrescent.az/news/post-8127.html; http://drr-southcaucasus.org/news/74/BSRC-Review-&-Planning-Meeting |
| **4.** | Bakı şəhərində 5-8 Fevral tarixlərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının dəstəyi ilə Fövqəladə hallar zamanı çevik cavabvermə planına, ümumiyyətlə cəmiyyətin FHHC sisteminin şərh olunması və təkmilləşdirilməsi, potensialının gücləndiliməsinə dair "Yaxşı hazırlıqlı Milli Cəmiyyə" adlı təlim məşğələsi keçirilmişdir. | Tədbirdə AzQAC ali rəhbərliyi, işçi heyəti, regional mərkəzlərin koordinatorları, şəhər və rayon bölmələrin sədrləri, BQXK-nin və Beynəlxalq Federasiyanın, Avstriya Qızıl Xaç Cəmiyyətinin nümayəndələrinin iştrakı ilə iki illik fəaliyyət planı tərtib edilmişdir.<br>http://drr-southcaucasus.org/news/70/Well-prepared-National-Society-workshop-Baku |
| **5.** | İl ərzində FHHC və Risklərin azaldılması, FH zamanı ekspert qrupu tərəfindən aparılan qiymətləndirməyə dair yerli səviyyədə Bakı, Sumqayıt şəhərləri və ölkədaxili regionlarda, beynəlxalq səviyyədə isə Kipr, Estoniya, Bolqarıstan, Macarıstanda təşkil edilmiş tədbirlərdə iştirak təmin edilmişdir. | -20-26 Yanvar- Estoniyanın Tallin şəhərində Həyyatin İdarə olunması kursu; http://az.redcrescent.az/news/post-7759.html;<br>-16-18 May- Macarıstanın Budapeşt şəhərində FHH layihəsi çəçivəsində görüş;<br>-10-12 Sentyabr- Bolqarıstanın Sofiya şəhərində Mexanizm üzrə Ekspertlərin seminarı;<br>-15-21 Sentyabr- Kiprin Larnaka şəhərində qiymətləndirmə üzrə Missiya kursu;<br>-FHN-nin başçılığı ilə yaradılmış FHH üzrə Milli Məsləhət Qrupunun görüşü və "Mülkü Müdafiə" gününün qeyd olunması tədbirləri keşirilmişdir. |
| **6.** | İl ərzində Bakı (21 nəfər), Tərtər (8 nəfər), Ağdam (13 nəfər), Füzuli (20 nəfər), Qazax (24 nəfər) rayonlarından olan Fövqəladə Mobil Könüllü Dəstələrin (FMKD) üzvlərinə BQXK-nin maliyyə və texniki dəstəyi ilə təlimlər və tədbirlər təşkil edilmiş, onlar lazımı ləvazimatlarla təmin edilmişdir. | -Təlimçilərin Təlimi (16 könüllü), İlk Yardım (75 könüllü), Silahlara Qarşı Mübarizə (26 könüllü), Psixoloji Yardım (27 könüllü), QXQAH/FP, Kommunikasiya və Yayım (96 könüllü) üzrə təlimlər keçirilmişdir;<br>-1170 nəfər tələbə, müəllim və icma nümayəndəsi İY Postlarının qurulması tədbiri zamanı İlk Yardım sahəsində maarifləndirilmişdir;<br>-5 ədəd ilk yardım dəsti, 5 ədəd xərək ianə edilmişdir;<br>-FMKD məlumat bazası, WhatsApp və Facebook səhifələri yaradılmışdır;<br>-21 nəfər könüllü simulasiya tapşırığında iştirak etmişdir. |
| **7.** | FMKD-nin iştirakı ilə 7 cəbhə xətti kəndlərin icma nümayəndələri üçün 6 saatlıq (2 günlük) İY, su və su təchizatı təlimləri, seçilmiş kəndlərdə gübrənin paylanılması, lazımi | : Ağcəbədi, Tovuz, Gədəbəy və Füzuli şəhərlərində 236 nəfər iştirakçı üçün İlk yardım təlimi keçirilmişdir;<br>-Ağstafa rayonu Tatlı və Yaradulu, Füzuli rayonu Şükürbəyli, Gədəbəy rayonu Sonalar və Hacılar, Qazax |

| | | |
|---|---|---|
| | biliklərin verilməsi üçün ailələrlə görüşlər təşkil edilmişdir. | rayonu Fərəhli ,Tovuz rayonu Qaralar kəndlərində 1090 ailəyə gübrə paylanılmışdır;<br>- AzQAC Ağdam RB-in könüllülərinə su və su təchizatı ilə bağlı təlim keçirilmişdir;<br>-Hacıməmmədli kəndində isə ailələrlə görüşlər keçirilmişdir. |



## Sağlamlıq və qayğı

| MƏQSƏD 3 | | |
|---|---|---|
| ***Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat yaşaması naminə bilik və bacarıqlarını artırmaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| 1. | İl ərzində Bakının 6, cəbhə xəttinin 7 və digər 38 rayonun təşkilatları, təhsil ocaqları, universitetlərdə, gənclər, psixoloji və nitq, BMT-nin qaçqınlar üzrə mərkəzlərində, tibb müəssələrində, ictimai birliklərdə, şəbəkələrdə və şuralarda tərəfdaşlarla birlikdə (narkotiklərdən və tütün məhsullarından istifadənin zərəri, uşaqların düzgün inkişafı və sağlamlığı, respirator xəstəliklər, sağlam həyat tərzi, diabet, hepatit, HİV/AİDS və s.) sağlamlıq mövzularında təlimlər, görüşlər, dairəvi masalar və maarifləndirici tədbirlər təşkil edilmişdir. | 8400 nəfər gənc, yeniyetmə, icma nümayəndələri, miqrant ailələri, müəllim heyəti qeyd edilən mövzularda maarifləndirilmişdir. |
| **2.** | 23 Yanvar tarixində AzQAC-ın əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə vərəm xəstəliyinə dair seminar təşkil olunmuşdur. | 38 nəfər seminar iştirakçısı Azərbaycanda vərəm problemi, ÜST vərəmlə bağlı statistik məlumatlar, xəstəliyə dair faktlar, ölkələrdə tibbi–sosial xidmətlərin qurulması ilə bağlı mövzularda məlumatlandırılmışdır. |
| **3.** | Aprel və Mart ayları müddətində Bakı Slavyan, Bakı Dövlət, Bakı Turizm, Qərb Universitetləri və Kooperasiya İnstitutunun AzQAC-ın Baş Qərargahında istehsalat təcrübəsində olan tələbələrinə mühazirələr oxunmuş, praktiki nümayişlər və təqdimatlar edilmişdir. | Seminarda iştirak edən 130 nəfər sağlam həyat tərzi, vərəm xəstəliyi və qan donorluğu, ilk yardım kimi sahələrdə bilik və bacarıqlarını artırmışlar. |

| | | |
|---|---|---|
| **4.** | 24 May tarixində AzQAC Suraxanı rayon bölməsi, Suraxanı Qadınlar cəmiyyəti və "Xəzər Qayğıkeşlik Layihəsi" Humanitar İctimai birliyi ilə birgə qeydiyatda olan tənha, kimsəsiz qoca, aztəminatlı ailələr üçün təmənnasız göz müayinəsi təşkil edilmişdir. | Keçirilən müayinələrdən 37 nəfər yararlanmışdır. |
| **5.** | **İl ərzində Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olmaq məqsədilə** Bakı, Sumqayıt və bir sıra regionların tədris oçaqlarında, müəssisələrində qanvermə aksiyaları və "Qan, onun komponentləri, qan xəstəlikləri" mövzularında təlimlər təşkil edilmişdir | Qavermə aksiyalarının nəticəsində 680 nəfər qan donoru olmuş və keçirilən təlimlərdən 2850 nəfər təlimatlanmışdır. |
| **6.** | **Əhalinin (icmaların) İlk Yardım üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə** il ərzində Bakının 5, Sumqayıt və cəbhə xətti rayonlarının 4 və digər 38 rayonun Fövqəladə Mobil Könüllü Dəstəsinin (FMKD) könüllüləri üçün, təhsil ocaqları, gənclər mərkəzləri, məktəblər, kolleclərdə, universitetlərdə, beynəlxalq təşkilatlar, satış şəbəkələrində, gömrük xidmətində, icmalar arasında, "Təhlükəsiz və Möhkəm İcmaların" layihəsi çərçivəsində İlk Yardım təlimləri və maarifləndirmə işləri təşkil edilmiş və FMKD yaradılmış rayonlarda İlk Yardım Postları quraşdırılmışdır. (bax ***Fövqəladə Hallara Hazırlıq və Cavabvermə bölməsinə***) | 4904 nəfər gənc, yeniyetmə, AzQAC-ın könüllüləri, miqrant ailələri və icma nümayəndələri İlk Yardım vərdişlərinə yiyələnmiş və BQXK-nın dəstəyi ilə Tovuz, Ağcəbədi, Fizuli, Gədəbəy rayonlarının kəndlərində 236 icma nümayəndəsi əhatə olunmuşdur. |
| **7.** | **Əhalinin (icmaların) Psixososial dəstək üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə** Fevral-iyun ayları ərzində Bakının 4, cəbhə xətti 5 rayonun təhsil ocaqları, məktəbləri, universitetləri, kolleclərində, Fresko mağazasında, FMKD arasında, AzQAC-ın Baş Qərargahında istehsalat təcrübəsi keçən tələbələrə "Fövqəladə Hallar zamanı və dinc şəraitdə İlkin Psixoloji Yardımın göstərilməsi, Stressin mənfi və müsbət cəhətləri, Bilincli və bilincsiz reaksiyaların fərqləndirmə metodları, Amplifikasiya və de-amplifikasiya metodları, Şübhə mexanizminin psixikaya təsiri, Psixi sağlamlıq" mövzuları üzrə təlimlər və mühazirələr təşkil edilmişdir. | Nəticədə 371 nəfər tələbə, müəllim heyəti, icma nümayəndsi və könüllülər adı çəkilən mövzularda maarifləndirilmişdir . |
| **8.** | **Milli Cəmiyyətimizin 2011-ci ildən Vərəm üzrə Azərbaycan QHT Koalisiyanın üzvü olaraq il ərzində** AzQAC-la yanaşı vərəm sahəsində fəal olan dövlət və QHT-lərlə əməkdaşlıq çərçivəsində Bakı, Sumqayıt və bir sıra regionlarda baş tutmuş texniki görüşlərdə, təhsil və tibb ocaqlarında, mədəniyyət və mətbuat mərkəzlərində, müxtəlif silsilə ictimai tədbirlərdə, maarifləndirmə işində, Bakıda təşkil edilmiş Yekun Konfransda, "24 Mart Vərəmlə Mübarizə Günü"nü ilə əlaqədar keçirilən tədbirdə və beynəlxalq görüşlərdə fəal iştirakı təmin edilmişdir. | İl ərzində regionlara 5 dəfə səfər olunmuşdur.<br>Keçirilən bütün tədbirlər nəticəsində 914 nəfər əhatə edilmişdir |



## Beynəlxalq Əlaqələr

| MƏQSƏD | | |
|---|---|---|
| ***1. Digər ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (BQXQACF və ya Beynəlxalq Federasiya) və müvafiq beynəlxalq təşkilatlarla mövcud əməkdaşlığın möhkəmləndirilməsi və əməkdaşlıq perspektivlərinin gücləndirilməsi, eləcə də humanitar fəaliyyətlərin həyata keçirilməsində yeni tərəfdaşlıq münasibətlərinin quruluraq əməkdaşlıq sərhədlərinin genişləndirilməsi***<br>***2. Milli Cəmiyyətin nümayəndələrinin Hərəkatdaxili və hərəkatdan kənar təşkil olunan müvafiq konfrans, tədbir, görüş, bilik və bacarıqların artırılmasına yönələn təlim və seminarlarda iştiraklarının, eyni zamanda xarici qonaqların və mütəxəssislərin AzQAC-a rəsmi səfərlərinin təşkilinin təmin olunması.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | İl ərzində AzQAC-ın prezidenti Novruz Aslanov ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Elena Ajmone Sessera arasında rəsmi görüşlər keçirilmişdir. | Hər iki qurum arasında mövcud əməkdaşlıq üzrə həyata keçirilən fəaliyyətlər müzakirə edilmiş, gələcək əməkdaşlıq planları müəyyənləşdirilmiş və yeni layihələr barədə geniş fikir mübadilələri aparılmışdır. |
| 2. | AzQAC-ın prezidenti Novruz Aslanov Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrab ilə görüş keçirmişdir. | Görüş zamanı humanitar sahədə aparılan işlərə dair hazırkı əlaqələr və gələcək perspektivlər müzakirə edilib, mövcud əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinin vacibliyi qeyd olunmuşdur. |
| 3. | May ayının 30-da Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQX/QACF) Qafqaz ölkələri üzrə nümayəndəliyinin başçısı Max Santnerin Azərbaycana növbəti səfəri həyata keçirilmişdir. | Səfər zamanı cənab Max Santnerin AzərbaycanQızıl Aypara Cəmiyyətinin prezidenti cənab Novruz Aslanovla görüşü zamanı bir sıra məsələlərin, o cümlədən gələcək fəaliyyətlərin və görüşlərin müzakirəsindən danışılmışdır. |

| | | |
|---|---|---|
| **4.** | 16 Aprel tarixində İcraçı Katib Ceyhun Mirzəyev və İcraçı Katibin müavini Səbinə Məhbubi İran da daxil olmaqla AzQAC-ın prezidenti Novruz Aslanovun başçılıq etdiyi nümayəndə heyəti, BQXK tərəfindən Bakı nümayəndəliyin başçısı Elena Aymone Sessera, Kooperasiya Proqramının rəhbəri Əziz Şah Abdul və BQX/QACF-ın Qafqaz ölkələri üzrə yeni təyin olunmuş nümayəndəliyinin başçısı Max Santnerin arasında üçtərəfli görüş baş tutmuşdur. | Görüşdə tərəflər arasında son görüşdən sonra aparılan qarşılıqlı və birgə fəaliyyətlər (Fövqəladə Hallarda fəaliyyət göstərən Mobil Komandaların yaranması və təlimatlandırılması, "Yaxşı İnkişaf etmiş Milli Cəmiyyətlər" adlı seminarın keçirilməsi, Milli Cəmiyyət daxili Fövqəladə Hallar sisteminin yaxşılaşdırılması üzrə layihənin tərtib olunması və s.), gələcək planlar, FH zamanı irəli sürüləcək Davamlılıq Planının hazırlanması, Hərəkat Daxili Kooperasiya və Koordinasiya əsas müzakirə mövzuları olmuşdur. Müzakirələrin nəticəsi olaraq görüşün sonunda İşçi Qrupun yaradılması və növbəti görüşün qarşı təşkilatın nümayəndəsi tərəfindən idarə olunması təklif edilmişdir. Novbəti görüş 2018 ci ilin Avqust ayına planlaşdırıldığı qeyd olunmuşdur. |
| **5.** | 13-14 Mart tarixlərində Gürcüstan Respublikasının Borjomi şəhərində AzQAC Prezidentinin müşaviri və "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsinin koordinatoru Elşən Səlimzadə, AzQAC İcraçı Katibinin müavini Səbinə Məhbubi-İran və "Fəlakətə hazırlıq və cavabvermə" şöbəsinin müdiri,"Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsinin meneceri Fərid Seyidzadə Cənubi Qafqaz II, Təhlükəsiz və möhkəm icmaların qurulması" proqramı çərçivəsində 2-ci "Regional İcmal və Planlaşdırma" görüşündə iştirak etmişlər. | Görüş iştirakçılara bilgi və təcrübə mübadiləsi aparmağa, icmaların möhkəmliyinə xüsusi diqqət verməklə fəlakətə hazırlıq və riskin azaldılması sahəsində gələcək perspektivlər barəsində düşünməyə yönəldilmişdir. |
| **6.** | 25-26 Aprel tarixlərində AzQAC-ın İcraçı Katibi Ceyhun Mirzəyev Yaponiya QXC tərəfindən Yaponiyanın Naqasaki şəhərində keçirilən Hərəkatın nüvə silahlarına dair yüksək səviyyəli konfransında iştirak etmişdir. | Konfransda BQXK, BQX/QACF və 35 Milli QX/QA Cəmiyyəti rəhbərlərinin və mütəxəssislərinin təşəbbüsü ilə nüvə silahlarının istifadə olunmaması, qadağan edilməsi və aradan qaldırılması üçün "Naqasaki Fəaliyyət Planı" hazırlanmışdır. |
| **7.** | 28-30 Aprel tarixində Qırğızıstan Respublikasının Bişkek şəhərində Avropa Qızıl Xaç və Qızıl Aypara Milli Cəmiyyətlərinin iştirakı ilə Avropa Gənclərinin XXIII Əməkdaşlıq görüşü keçirilmişdir. | XXIII Əməkdaşlıq görüşü zamanı Avropa Gənclərinin Əməkdaşlıq Komitəsinin (EYCC) yeni üzvlərinin seçilməsi prosesi baş tutmuş və Komitənin 2 illik iş planı hazırlanmışdır. Planda Komitənin 2018-2020-ci illərdə Avropa Gənclərinin Əməkdaşlıq Komitəsi sub-regional şəbəkənin inkişafı, gənclərin miqrasiya əməliyyatlarında fəaliyyəti, Gənclərin Cəlbolunma Siyasətinin həyata keçirilməsi, gənclər siyasətində yeniliklərin edilməsi və gənclərin idarəetmədəki rolunun artması kimi prioritet sahələr müəyyən olunmuşdur. |
| **8.** | 29-31 May tarixlərində AzQAC-ın əməkdaşları Nuranə Qasımzadə və Nigar Məmmədova BQXK-nın Azərbaycan Nümayəndəliyi və ADA Universiteti tərəfindən Beynəlxalq Humanitar Hüquq (BHH) mövzusunda təşkil olunan seminarlarda iştirak etmişlər. | AzQAC-ın əməkdaşları BHH sahəsində olan biliklərini daha da artırmışlar. |

| | | |
|---|---|---|
| **9.** | Miqrasiya şöbəsinin TOM layihəsinə dəstək olmaq üçün Litvanın Azərbaycandakı Səfirliyinə müraciətlər göndərilmiş və görüşlər keçirilmişdir. | Nəticədə göndərilən müraciətlər Litva Səfirliyinin Baş qərargahı tərəfindən qəbul olunmuş və layihənin həyata keçirilməsi üçün Səfirlik və AzQAC arasında müqavilə imzalanmışdır. |
| **10.** | 2 May tarixində AzQAC-ın Prezidenti Novruz Aslanov və İcraçı Katibin müavini Şaban Şayev Qazaxıstanın Alma-Atı şəhərində 10-cu Avropa Regional Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri konfransında iştirak etmişlər. | Konfransda "Milli Cəmiyyətlərin təqdim olunması və yerli kontekstə uyğunluğu" mövzusundan bəhs edilərək, daxili resursların səfərbər edilməsinin gücləndirilməsi, "Gənclik və Könüllülük", "İcmalarda hesabatlıq və qoşulma" kimi məsələlər müzakirə olunmuşdur. |
| **12.** | 5 İyun tarixində Qızıl Xaç və Qızıl Aypara hərəkatının tərkib hissəsi olan Beynəlxalq Federasiya, Beynəlxalq Qızıl Xaç Komitəsi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin heyətindən tərtib olunmuş İşçi Qrupunun rəsmi görüşü baş tutmuşdur. | Görüşdə Hərəkatdaxili əməkdaşlıq və koordinasiyanın gücləndirilməsi (SMCC) prosesi, SMCC vasitələri, Hərəkatın Ölkə Planı, Fövqəladə Planın ətrafında mövcud sənədlər və istəyimizə və əldə edə biləcəyimizə dair dərin ümumi anlayışın yaradılması məsələsi geniş müzakirə olunmuşdur. |
| **13.** | 4 İyul tarixində BQX/QACF-ın Baş katibi cənab Elhac As Sy Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Baş Katibi Federasiya Katibliyinin "Qlobal İdarəetmə, Milli Cəmiyyət və Dövlət arasında əməkdaşlıq, Resursların İnkişafı" şöbəsinin rəhbəri cənab Finnjarle Rode, Avropa regionu üzrə direktoru cənab Simon Missiri və direktorun müavini cənab Elxan Rəhimov müşayət etmişdir. | İşguzar səfər nəticəsində Azərbaycan Respublikası hökuməti, AzQAC və Beynəlxalq Federasiya arasında təbii fəlakətlər zamanı risklərin idarə olunması, Milli Cəmiyyətin potensialının inkişafı, sağlamlıq, Qızıl Xaç və Qızıl Aypara şəbəkəsinin və Qızıl Xaç və Qızıl Aypara hərəkatının fundamental prinsiplərinin gücləndirilməsi kimi ən ümdə duran məsələləri əhatə edən üçtərəfli Anlaşma Memorandumu imzalanmışdır. |
| **14.** | 9-16 Avqust tarixlərində AzQAC-ın "Beynəlxalq əlaqələr" şöbəsinin müdiri Nuranə Qasımzadə və Mobil könüllü dəstələrinin koordinatoru Nigar Rüstəmzadə Türkiyənin Heybəliada bölgəsində təşkil olunmuş Beynəlxalq düşərgədə iştirak edərək Milli Cəmiyyəti təmsil etmişlər. | Gənc nümayəndələr öncə öz Milli Cəmiyyətlərini, daha sonra isə təşkil edilmiş tədbirdə ölkələrini təqdim və təmsil etmişlər. Milli Cəmiyyətlərin gənc nümayəndələri öz ölkə və Milli Cəmiyyətlərində humanizm naminə həyata keçirilən fəaliyyət və təcrübələri əsasında ideya və təkliflərini bir araya gətirərək müxtəlif mövzularda layihələr hazırlamışlar. |
| **15.** | Sentyabrın 24-də Bakıda 45 ölkəni təmsil edən 220-dən çox qonağın qatıldığı "Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin 20-ci Qlobal Forum"u keçirilmiş və Forumda Milli Cəmiyyəti Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nuranə Qasımzadə təmsil etmişdir. | Əqli məhdudiyyəti olan və olmayan 120 gənc liderin də iştirak etdiyi forum zamanı dünyanın müxtəlif yerlərindən gəlmiş gənc liderlər, əlavə olaraq daha yaşlı 100 liderin iştirakı ilə, öz ölkələrində daha inkluziv cəmiyyətlər formalaşdırmaq məqsədilə qrup layihələri hazırlanmışdır. |
| **16.** | 9 Oktyabr tarixində Danimarka Qızıl Xaç Cəmiyyətinin xoşməramlı səfiri Thorbjorn C. Pederson AzQAC-ın Baş Qərargahında qonaq olmuşdur. | Cənab Thorbjorn AzQAC fəaliyyəti və kollektivi ilə yaxından tanış olmuşdur. |
| **17.** | Oktyabr ayında BMT Baş katibinin Yaxın Şərq və Mərkəzi Asiya regionları ilə humanitar əməkdaşlıq üzrə müavini Rəşid Xalikov AzQAC-a təşrif buyurmuşdur. | Görüş zamanı Milli Cəmiyyətin fəaliyyətinə dair qısa videoçarx nümayiş etdirilmiş, həyata keçirilən layihələr, Azərbaycanda humanitar sahənin inkişafına dair bir sıra məsələlər və gələcək perspektivlər ilə əlaqədar müzakirələr aparılmışdır. |
| | Oktyabr ayının 25-26-da Humanitar Forumun | Görüş zamanı Milli Cəmiyyətin fəaliyyətinə dair qısa |

| | | |
|---|---|---|
| **18.** | prezidenti cənab Hany EL Banna AzQAC-ın Baş ofisində işguzar səfərdə olmuşdur. | videoçarx nümayiş etdirilmiş, həyata keçirilən layihələr, Azərbaycanda humanitar sahənin inkişafına dair bir sıra məsələlər və gələcək perspektivlər ilə əlaqədar müzakirələr aparılmışdır. |
| **19.** | Noyabr ayında AzQAC-ın Baş Qərargahında Cəmiyyətin və Qazaxıstanın "Ardager", Qırğızıstanın "Yaşlılar üçün Resurs Mərkəzi" İctimai Birliyi və Qırğızıstan Milli Cəmiyyətinin nümayəndələrinin iştirakı ilə görüş təşkil edilmişdir. | Görüşdə qonaqlara Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyət istiqamətləri haqqında məlumatlar verilmişdir. |
| **20.** | 14-15 Noyabr tarixlərində AzQAC-ın İcraçı Katibi Ceyhun Mirzəyev, İcraçı Katibin müavinləri Xalidə İsgəndərova və Səbinə Məhbubi-İran, TMİQ layihəsinin koordinatoru Elşən Səlimzadə, Sumqayıt Regional Mərkəzinin koordinatoru Mətanət Məhərrəmova, İsmayıllı və Qusar rayon bölmələrinin sədrləri Tofiq Soltanov və Binyəddin Xeyirbəyov, Fövqəladə Hallar Nazirliyinin Xüsusi Əməliyyatlar şöbəsinin müdir müavini Ələsgər Əliyev, İsmayıllı və Qusar rayonlarının icra hakimiyyətinin nümayəndələri Rüstəm Səmədov və Canəli Hörmətov, İsmayıllı rayonu Sumağallı icmasının üzvləri İlkin Salahov və Teymur Mirzəyev Gürcüstanın Tiflis şəhərində baş tutan "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" (TMİQ) layihəsinin yekun konfransında iştirak etmişlər. | Avstriya İnkişaf Agentliyinin maliyyə dəstəyi, Avstriya Qızıl Xaç Cəmiyyətinin Gürcüstan Qızıl Xaç Cəmiyyəti ilə birgə təşkil etdiyi 2 günlük konfransda 2012-ci ildən bu günə kimi aparılan fəaliyyətlərin nəticəsində əldə olunan naliyyətlər təqdim olunmuş və gələcək addımlar müzakirə edilmişdir. |
| **21.** | AzQAC-ın Baş Qərargahında BQXK-nın nümayəndələrinin iştirakı ilə "Təhlükəsiz giriş" mövzusunda seminar keçirilmişdir. | Seminar zamanı AzQAC-ın və BQXK-nın nümayəndələri mövzu ilə əlaqəli təqdimatlar etmişlər. Təqdimatlarda təhlükəsiz yetişmənin elementləri, məzmun və risklərin qiymətləndirilməsi, fundamental prinsiplərin təbliği və tətbiqi, işçi heyəti və könüllülər ilə davranış, rəftar və dəstək qaydaları, fövqəladə hallara hazırlıq və cavabvermə, daxili və xarici informasiyaların koordinasiya olunması, məlumatların paylaşımı və idarə olunması, sosial media və kommunikasiya siyasəti, strategiyası və qaydaları, insan və texniki resusrların cəlb olunması, təhlükəsizlik və əmniyyət qaydaları haqqında iştirakçılara məlumatlar verilmiş və təqdim edilən mövzular ətrafında müzakirələr aparılmışdır. |
| **22.** | 17 Dekabr tarixində AzQAC-ın Baş ofisində AzQAC, BQXK və Beynəlxalq Federasiya arasında əməkdaşlıq görüşü keçirilmişdir. | Üçtərəfli əməkdaşlıq çərçivəsində keçirilən görüşdə 2018-ci ildə əldə olunmuş nailiyyətləri rəhbər tutaraq, fəaliyyət istiqmətlərinin 2019-ci ildə daha da genişləndirilməsi və bir sıra mühüm məsələlər haqqında müzakirələr aparılmış və 2019-cu il üçün AzQAC və BQXK-nin Azərbaycan Nümayəndəliyi arasında Tərəfdaşlıq sazişi imzalanmışdır. |



## İnformasiya və İctimaiyyətlə Əlaqələr

| MƏQSƏD | | |
|---|---|---|
| ***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət arasında daha effektiv yaymaq, digər Milli Cəmiyyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | AzQAC-ın fəaliyyətlərini əks etdirən 158 məqalə Cəmiyyətin rəsmi internet səhifəsində yerləşdirilmişdir. | İstər yerli istərsə də beynəlxalq səviyyədə AzQAC-ın reytinqi daha da yüksəlmiş, əməkdaşlıq təklifləri artmışdır. |
| **2.** | Qızıl Xaç, Qızıl Aypara emblemlərindən istifadə qaydalarına nəzarət edilmiş, emblemlərdən sui-istifadə qaydalarına riayət edilməsinə nəzarət edilmişdir. | 2018-ci il ərzində emblemlərdən sui-istifadə hallarına cəmi 1 dəfə rast gəlinmişdir. Aparılan danışıqlar nəticəsində Qızıl Xaç emblemi turizm şirkətinin ofisinin reklam platformasından çıxarılmışdır. |
| **3.** | Yanvar və Mart aylarında AzQAC-da istehsalat təcrübəsində olan Azərbaycan Dillər Universitetinin, Xəzər Universitetinin, Kooperasiya Univeristetinin, Qərb Universitetinin ümumilikdə 50 nəfər tələbəsinə Cəmiyyətin fəaliyyət istiqamətləri və Hərəkatın Fundamental Prinsipləri haqqında əhatəli seminarlar təşkil edilmişdir. | İstehsalat təcrübəsində olan tələbələrin AzQAC-ın fəaliyyət istiqamətləri və humanitar sahədə gördüyü işlər barədə maarifləndirilmiş və Milli Cəmiyyətin universitetlərdə daha çox tanınmasına nail olunmuşdur. |
| **4.** | Mart, Aprel və İyul aylarında BQXK-nın Azərbaycan nümayəndəliyinin dəstəyi ilə yaradılmış AzQAC-ın fövqəladə mobil könüllü dəstələrinə Ağdam, Tərtər, Füzuli, Qazax və Bərdə rayonlarında QX/QA Hərəkatı haqqında, Cəmiyyətin fəaliyyət istiqamətləri haqqında sessiyalar təşkil olunmuşdur. | 96 nəfər AzQAC-ın FMKD-nin üzvü seminarlarda iştirak etməklə, özlərinin yayım sahəsində bilik və bacarıqlarını artırmışlar. |
| **5.** | İl ərzində BQXK-nın Azərbaycandakı nümayəndəliyinin "İctimaiyyətlə əlaqələr və Əməkdaşlıq" şöbələri ilə görüşlər təşkil edilmişdir. | Yayım materiallarının çapına, seminarların keçirilməsində BQXK-nın dəstəyinə nail olunmuşdur. |
| **6.** | İl ərzində AzQAC-ın təşkil etdiyi tədbirlərin, görüşlərin və həyata keçirdiyi layihələrin KİV-lərdə işıqlandırılması üçün telekanallara fakslar göndərilmişdir. | Nəticədə televiziya kanallarının çəkiliş heyəti və jurnalistləri Cəmiyyətin təşkil etdiyi tədbirlərdə iştirak etmiş və AzQAC-ın fəaliyyətlərini təmsil etdikləri kanallarda işıqlandırmışlar. |
| **7.** | İl ərzində AzQAC-ın həyata keçirdiyi layihələr, | AzQAC-ın həyata keçirdiyi layihələr, təşkilatçılıq |

| | | |
|---|---|---|
| | təşkilatçılıq etdiyi tədbirlər haqqında məqalələr qəzetlərdə, internet-xəbər portallarında yayımlanması üçün göndərilmişdir. | etdiyi tədbirlər haqqında məqalələr-ümumilikdə 158 məqalə Azərtac.az, Nezermedia.az, Modern.az kimi internet səhifələrində, “Vışka (Вышка)”, “Yeni Təfəkkür” qəzetlərində işıqlandırılmışdır. |




## Gənclər və Könüllülər

| | | |
|---|---|---|
| **MƏQSƏD** | | |
| ***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və Könüllüləri İdarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə könüllü xidmətin səmərəliliyini artırmaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | İl ərzində könüllülərin cəlb olunması strategiyasına əsaslanaraq, Respublikada yerləşən tədris müəssisələrində, rayonlarda yerləşən orta məktəblərdə, kolleclərdə və Ali təhsil ocaqlarında könüllülərin cəlb olunması üçün mütəmadi maarifləndirmə işləri aparılmışdır. | RM-də və yerli bölmələrdə könüllü işinə dəstək olunmuş, 1400 nəfər AzQAC könüllüsü olmaq üçün qeydiyyatdan keçmişdir. |
| **2.** | İl ərzində müxtəlif unversitetlərdən AzQAC-ın Baş Qərargahına istehsalat təcrübəsi keçmək üçün gələn tələbələrə təlimlər keçilmiş, tələbələr isə öz növbəsində evlərdə yaşayan ehtiyaclı uşaqlara, qocalara humanitar yardımlar etmişdir. | 74 nəfər tələbə AzQAC- fəaliyyətləri haqqında öz bilik və bacarıqlarını artırmış, uşaqlar və qocalar edilən yardımlardan faydalanmışdır. |
| **3.** | İl ərzində Sərhədyanı bölgələrdən olan könüllülər, tələbələr və Qusar, İsmayıllı rayonlarında icmalarda fəaliyyət göstərən könüllülər ücün modul, lider, sosial və İlk yardım təlimləri keçirilmiş və təlim alan təlimçilər öz növbələrində aldıqları biliklərdən 120 təlimatçı hazırlamış, həmin təlimatçılar isə 420 nəfəri maarifləndirmişdir. | Könüllülər və kəndlilər İlk yardım vərdişlərinə yiyələnmiş və əsasən minaya düşmə hadisələri zamanı zərərçəkən insanları xəstəxanaya çatdıranadək ilk yardımetmə bacarıqlarını mənimsəmişlər. |
| **4.** | İl boyu təhsil ocaqlarında ilk yardım, hərəkatın tarixi və fəaliyyəti haqqında məlumatların yayılması davam etdirilmişdir. | Gənclər AzQAC faəliyyəti haqqında maarifləndirilmişdir. |
| **5.** | İl ərzində könüllülərin qeydiyyat sistemi ilə qeydiyyatları aparılmışdır. | Könüllülərin AzQAC-ın rayon bölmələrində fəaliyyətlərinin düzgün koordinasiyasına köməklik etmişdir. |

| | | |
|---|---|---|
| **6.** | İl ərzində Gənclər proqramının inkişafına dair Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri və QHT-lərin əməkdaşları ilə gənclər arasında mübadilə proqramının yerinə yetirilməsi davam etdirilmişdir. | Təşkilatlarla sıx əməkdaşlıq etməklə birgə mübadilə proqramları tədricən icra edilmişdir. |
| **7.** | İl ərzində Könüllülər şurasının möhkəmləndirilməsi daxil olmaqla könüllü idarəçilik sisteminin, elektron qeydiyyatın və könüllülərə dair siyasətin inkişaf etdirilməsi ilə bağlı Könüllülər şurasının 2 Milli və 2 Regional görüşü keçirilmişdir. | Görüşdə 28 nəfər könüllü iştirak etmiş və könüllülərlə işləmək, onların maraqlarını dəstəkləmək, bacarıqlarını təkmilləşdirmək, işlərinə dəstək olmaq kimi fəlaiyyətlər həyata keçirilmişdir. |
| **8.** | 2 Fevral Gənclər günü ilə əlaqədar Bakı şəhərində gənclər və yeniyetmələr arasında ekskursiya xarekterli tədbir keçirilmişdir.Yeniyetmələr və gənclər, teatrda və Şokolad fabrikində olmuşlar. | 210 nəfər uşaq və yeniyetmənin iştirak etdiyi tədbirdə uşaqların kommunikasiya bacarığı və dünyagörüşü artmışdır.Şokoladların hazırlanma texnologiyası ilə yaxından tanış olan uşaqlar, hazırlanan şokoladlardan bəhrələnmişlər. |
| **9.** | 5 Mart tarixində “10 Mart- AzQAC yaranma günü” ilə əlaqədar olaraq uşaqlar arasında ” Mərhəmətli olaq” mövzusunda rəsm müsabiqəsi keçirilmişdir. | Müsabiqədə 43 uşaq iştirak etmiş və sonda qaliblər mükafatlandırılmışdır. Nəticədə uşaqlar öz bilik və bacarıqlarını artırmışlar. |
| **10.** | Martın 10-da Dövlət Texniki, Dekabr 2-də Sumqayıt Dövlət və Dekabrın ayının 5-də Azərbaycan Dövlət Pedaqoji universitetlərində qan azlığından əziyyət çəkən uşaqlar və qana ehtiyacı olan xəstələr üçün qanvermə aksiyası kecirilmişdir. | Tədbirdə 1700-dən çox müəllim və tələbə iştirak etmiş və qana ehtiyacı olan insanların problemləri müəyyən qədər azalmışdır. |
| **11.** | 17 Mart tarixində Novruz bayramı ilə əlaqədar Onkologiya uşaq xəstəxanasında əyləncəli tədbir keçirilmiş və sonda uşaqlara hədiyyələr verilmişdir. | Xəstə uşaqlara qarşı stiqmatizasiya səviyəsinin sayı azalmış və valideynlərin usaqlara sərf edəcəkləri xərclərin bir qismi azalmışdır. |
| **12.** | 8 may “Qızıl Xaç və Qızıl Aypara Hərakatının yaranması” günü ilə əlaqədar FHN ilə birgə İsmayıllı və Qusar rayonlarında yerləşən kolleclərdə gənclər üçün təlim-məşğələ keçirilmişdir. | 1500 dən artıq tələbənin iştirak etdiyi tədbirdə, gənclər fövqəladə hallar zamanı özünümüdafiə bacarıqlarına yiyələnmişlər. |
| **13.** | “1 iyun Uşaqların Müdafiəsi Günü” ilə əlaqədar Binəqədi, Sabunçu rayonunda yaşayan az təminatlı ailələrin uşaqları üçün və Sumqayıt səhərində yerləşən fiziki cəhətdən zəif olan uşaqların internat məktəbində və İsmayıllı rayonunda əyləncəli tədbir keçirilmiş, uşaqlara müxtəlif hədiyyələr təqdim olunmuşdur. | . Tədbirdə iştirak edən 706 uşağın müvəqqəti də olsa mənəvi qayğıları unudulmuş, onların təhsildə olan dərs ləvazimatları ilə bağlı çətinlikləri qisməndə olsa aradan qaldırılmış və müəyyən qədər də olsa istirahətləri təmin olunmuşdur. |
| **14.** | “15 Sentyabr- Bilik Günü” ilə əlaqədar Bakının Nəsimi, Binəqədi, Nizami və Sabunçu rayonlarında, Kəlbəcər rayonu və Sumqayıt şəhərində yerləşən məktəblərdə təhsil alan aztəminatlı ailələrin usaqları üçün tədbir keçirilmişdir. | Tədbirdə 540 nəfər uşaq yararlanmış və onlar dərs ləvazimatları ilə təmin edilmişdir. Uşaqların mövcud təhsil ehtiyacları aradan qaldırılmışdır. |
| **15.** | 10 Oktyabr “Psixi sağlamlıq” günü ilə əlaqədar Sabunçu rayonunun Maştağa qəsəbəsindəki xəstəxanada əyləncəli tədbir keçirilmişdir. Tədbirin sonunda iştirakçılara hədiyyələr təqdim olunmuşdur. | Nəticədə, 52 nəfər tədbir iştirakçısının insanlara qarşı stiqmatizasiya dərəcəsi azalmış, həmin insanların cəmiyyətdə fəal iştirakına köməklik edilmişdir. |
| **16.** | “1 Dekabr – “HİV\AİDS – lə Mübarizə Günü” ilə əlaqədar Bakı və Sumqayıt şəhərlərinin ümumilikdə 4 Ali təhsil | Tədbirdə 2000 mindən artıq insan iştirak etmişdir. Nəticədə gənclərin düşünülmüş |

| | | |
|---|---|---|
| | ocağında tələbə və müəllimlər arasında AİDS-ə qarşı test analizi aparılmışdır. Eyni tədbir "Park bulvar" ticarət mərkəzində də həyata kecirilmişdir. | addım atmalarına kömək olunmuş, gənclərin müayinəsi zamanı onlara göstərilən xidmətə dair bilikləri artmışdır. |
| **17.** | "5 Dekabr Beynəlxalq Könüllülər" günü ilə əlaqədar, 2 ali təhsil ocağında qanvermə aksiyası keçirilmişdir. | 1200 nəfər tələbə iştirak edən aksiyadan toplanmış qanlar, qana ehtiyacı olan insanlara kömək edəcəkdir. |
| **18.** | "5 dekabr Beynəlxalq Könüllülər" günü ilə əlaqədar "Park Bulvar" TM-də "Yaşıllığa daha yaxın olaq" mövzusunda tədbir kecirilmişdir., | Tədbirdə iştirak edən uşaqlara yaşıllığın qorunmasının zərurəti barədə ətraflı məlumat verilmiş və 500 nəfər uşaq gül əkmişdir. |
| **Cəmi: 10493 nəfər keçirdiyimiz tədbirlərdən yararlanmışdır.** | | |




## Fondların artırılması və gəlirgətirmə

| **MƏQSƏD** | | |
|---|---|---|
| ***AzQAC-ın maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrinin artırılması.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | Dekabr ayında BQXK tərəfindən 30 ədəd 20 x 20 ölçüsündə kiçik ianə qutuları, 30 ədəd 80 x 30 ölçüsündə böyük ianə qutuları, bundan əlavə 60 ədəd 20 x 20 ölçüsündə kiçik ianə qutuları daxili imkanlar heabına hazırlanaraq Fondların artırılması və gəlir gətirmə şöbəsinə təhvil verilmişdir. | İanə qutularının sayı artmış, yerləşdirilməsi və yığımı üçün geniş imkanlar yaranmışdır. |
| **2.** | 2018-ci il ərzində bir sıra şirkət və müəssisələrə Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə əməkdaşlıq edilməsi üçün müvafiq məktublar göndərilmişdir. | İl ərzində 1500 məktub göndərilmiş və "Bravo" marketlər şəbəkəsi, "Burger King""Veysəloğlu", "Albalı" market, "Jasmin" Aptek, "Chicco" uşaq mağazası, "Go Sport", "The Bagel", "Spar" |

| | | |
|---|---|---|
| | | marketlər şəbəkəsi və s. kimi<br>bir çox şirkət və müəssisələrdən ianə qutularının yerləşdirilməsi ilə bağlı müsbət cavablar alınmışdır. |
| **3.** | İl ərzində hər ay üzrə ianə qutularında yığılan vəsaitlər toplanılmışdır. | İanə qutularından ***46.684,66*** AzN məbləğində pul vəsaiti toplanılmışdır. |
| **4.** | -18 Avqust tarixində AzQAC-ın Baş Qərargahında “Nikoil” Bank ASC tərəfindən Qurban bayramı münasibətilə aztəminatlı ailələrə qurban payları verilmişdir. | Aztəminatlı ailələrdən olan 30 nəfər bu yardımdan faydalanmışdır. |
| **5.** | Dekabr ayının 25-də Mərdəkan qəsəbəsində “MC-Donalds” restoranında ianə qutularından yığılan vəsait hesabına eşitmə və danışma qüsurlu uşaqlarla birgə bayram şənliyi keçirilmişdir. | 50 nəfər uşaq bu şənlikdə iştirak etmişdir. |



## Humanitar yardım

| | | |
|---|---|---|
| **MƏQSƏD** | | |
| ***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək,yardıma ehtiyacı olan ahıl,tənha-kimsəsiz ,qaçqın və məcburi köçkün ailələrə ,aztəminatlı və təbii fəlakətlərdən ,texnogen hadisələrdən zərər çəkmiş zavallı insanlara ,miqrantların müəyyən qisminə müxtəlif formada köməklik göstərmək,humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında mərhəmət və xeyirxahlıq hisslərini aşılamaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | 2018-ci ilin humanitar yardım fəaliyyəti ilə bağlı yekun təhlillərin aparılması. | 2019-cu ilin birinci rübünün ilk 15 günü ərzində 2018-ci ilin humanitar yardım fəaliyyəti ilə bağlı yekun təhlillər |

| | | |
|---|---|---|
| | | aparılmış, nəticə etibarı ilə illik yekun hesabat hazırlanaraq AzQAC-ın İcraçı Katibinə təqdim olunmuşdur. |
| **2.** | AzQAC- ın Regional mərkəzləri və yerli bölmələri ilə işgüzar əlaqələrin inkişafı . | 2018-ci ilin əvvəlindən etibarən Milli Cəmiyyətin RM və RB vasitəsilə humanitar yardım fəaliyyətinə dair əlaqələndirmə işi aparılmış, daxil olan ərizə və müraciətlər aidiyyatlı ərazi üzrə yönləndirilərək müsbət cavablandırılmışdır. |
| **3.** | Humanitar yardıma ehtiyacı olan vətəndaşların qəbulu işinin təşkili. | Hesabat ili ərzində hər həftənin çərşənbə günü AzQAC-ın Bakı şəhəri Nərimanov rayon bölməsinin ofisində katiblik tərəfindən vətəndaşların qəbulu zamanı şöbənin iştirakı təmin olunub.Müxtəlif səpkili məsələlərlə bağlı müraciət edənlərin sayı 39 nəfər təşkil edib. |
| **4.** | Müraciət edən tənha və kimsəsiz, aztəminatlı insanların şöbədə və yerli bölmələrdə qeydiyyatının təşkili. | İl ərzində 8 nəfər şöbədə , 48 nəfər isə digər bölmələr üzrə əlavə qeydiyyata götürülərək qeydiyyat siyahılarına əlavə edilmişlər.Şöbə və yerli bölmələr üzrə ümumilikdə 11.000 nəfərə yaxın müvafiq kateqoriyalı insan daimi qeydiyyatdadır.Bunlardan 3.150 nəfəri Bakı şəhəri üzrə yerli bölmələrdə,7.800 nəfəri digər şəhər və rayon bölmələrində, 50 nəfəri isə şöbədə qeydiyyatdadırlar. |
| **5.** | Ərizə və fərdi müraciətlərə baxılması, onlar əsasında sosial vəziyyətin qiymətləndirilməsi və humanitar yardımın gostərilməsi. | İl ərzində şöbəyə 23 yazılı müraciət daxil olmuş, 47(fərdi müraciət) ərzaq və s. formada humanitar yardım göstərilməsi ilə bağlı, 588 nəfər güzəştli tibbi mayinə keçməklə bağlı müraciət etmişlər.Ümumi müraciətlərin sayı 688 nəfər təşkil etmişdir.Müraciətlər mümkün imkanlar daxilində müsbət cavablandırılmışdır. |
| **6.** | Tənha və kimsəsiz , xəstə, ahıl və digər ehtiyaclı insan qruplarının güzəştli və ya təmənnasız tibbi müayinəsinin təşkili. | İl ərzində İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı Klinikası ilə əməkdaşlıq çərçivəsində qeyd olunan kateqoriyaya aid 588 nəfər tibbi müayinə - göndəriş kartı ilə təmin olunmuş və onların təmənnasız müayinədən keçməsinə şərait yaradılmışdır.Təmənnasız tibbi müayinənin ümumi məbləği 60 AZN güzəştli limit həddi olmaqla 35.280 AZN təşkil etmişdir. |
| **7.** | Miqrantlar və digər əcnəbi vətəndaşlarla iş. | İl ərzində şöbəyə 7 miqrant ailəsi tərəfindən sosial vəziyyətin yaxşılaşdırılması ilə müraciət daxil olmuşdur.Onlardan 4-ün tibbi müayinəsi təşkil olunmuş, 3 ailəyə Katibliyin digər əlaqədar şöbələri ilə əməkdaşlıq çərçivəsində müvafiq yardımlar göstərilmişdir. |
| **8.** | Respublikanın müxtəlif təhsil ocaqlarından Azərbaycan Qızıl Aypara Cəmiyyətinə istehsalat təcrübəsinə göndərilmiş tələbələrlə iş. | 24 nəfər tələbəyə Humanitar yardım siyasəti haqqında mühazirələr oxunmuş, onlara metodiki tövsiyyə xarakterli bilgilər verilmişdir. |
| **9.** | 2018-ci ilin əlamətdar günləri ilə əlaqədar Cəmiyyətin missiyasına uyğun humanitar yardım tipli tədbirlərin həyata keçirilməsi. | Novruz Bayramı, Qurban Bayramı , Ramazan Bayramı və s. münasibətilə bir sıra humanitar yardım xarakterli tədbirlər keçirilmiş, humanitar yardımlar edilmişdir. |
| **10.** | İl ərzində AzQAC-ın şəhər, rayon bölmələri tərəfindən həyata keçirilən tədbirlər nəticəsində göstərilən humanitar yardımların təhlil olunması. | Ümumilikdə, 16124 nəfərə 393091 AZN məbləğində müxtəlif növ (ərzaq və qeyri-ərzaq, maddi və s.) humanitar yardımlar edilmişdir. |



## Miqrasiya

| | | |
|---|---|---|
| **MƏQSƏD** | | |
| ***Ölkəyə təşrif buyuran miqrantların, həmçinin, qaçqın və məcburi köçkünlərin normal şəraitdə yaşaması üçün onların bütün yerli və beynəlxalq hüquqlarla təmin olunmasında vəkillik etmək, ölkədə yaşayan miqrantlara daim diqqət və qayğı göstərərək əsas ehtiyaclarını öyrənmək və dəstək olmaq.*** | | |
| | **FƏALİYYƏT** | **NƏTİCƏ** |
| **1.** | 2017-ci ilin dekabr ayından 2018-ci ilin sentyabr ayıdanadək "İnsan alverinə qarşı mübarizə" mövzusunda Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Miqrasiya Təşkilatının birgə lahiyəsi üzrə təhsil ocaqlarında AzQAC-ın 84 rayon bölməsinin və Baş Qərargahın Miqrasiya şöbəsinin iştirakı ilə respublika üzrə mariflәndirmə seminarı keçrilmişdir. | Respublika üzrə müxtəlif təhsil ocaqlarında keçirilən 1900 seminarda 47500 şagird maariflənmişdir. |
| **2.** | Yanvar-dekabr aylarında İncəsənət muzeyinə, teatrlara, AzQAC Sabunçu RB-in təşkil etdiyi tədbirə, Pedaqoji Universitetdə baş tutan Qanvermə aksiyasına, ASAN xidmət mərkəzinin müsabiqəsinə, Azərbaycan Vərəm koalisiyasının konfransına miqrantlar üçün dəvətlər təşkil edilmişdir. | Keçirilən tədbirlərdə 38 nəfər miqrant çox aktiv şəkildə iştirak etmişdir. |
| **3.** | İl ərzində fərdi dəstəkçilər tərəfindən ehtiyacı olan miqrant ailələri üçün qurban əti paylanmışdır. | 30 ailə bu yardımdan bəhrələnmişdır. |
| **4.** | İl ərzində mütəmadi olaraq fərdi şəkildə ehtiyacı olan miqrant ailələrə geyim, ev əşyaları, yataq dəstləri, parçalar, ərzaq yardımı paylanılmışdır. | 70 ailə isti paltar, uşaq gödəkçələri, məktəbli forması, yataq dəstləri, ev əşyaları kimi qeyri-pul yardımından yararlanmışdır.<br>2 əfqan uşağa isə fərdi şəxs tərəfindən 2 ədəd velosiped hədiyyə edilmişdir. |
| **5.** | İl ərzində olan bayramlar ərəfəsində miqrantlara konsertə, teatra və tədbirlərə biletlər paylanılmışdır | 52 bilet paylanılmışdır. |
| **6.** | İl ərzində ehtiyacı olan miqrantlara ərzaq yardımı edilmiş və doğum günləri qeyd olunmuşdur. | 3 əfqan ailəsinə evində bir neçə dəfə baş çəkilmiş və ərzaq yardımı edilmiş və 2 ailəyə resept üzrə dərman alınmışdır.<br>4 əfqan uşağın ad günü qeyd edilərək, hədiyyə verilmişdir. |
| **7.** | Yanvar və May aylarında Ombudsman Aparatı nəzdində "Uşaq və Gənclər Sülh" mərkəzinin Liderlik məktəbində "Miqrasiya | Tədbirdə iştirak edən 60 nəfər uşaq və gəncə mövzu ilə bağlı bukletlər paylanmışdır. |

| | | |
|---|---|---|
| | nədir və miqrantlarla iş" mövzusunda seminar-dərs keçirilmişdir. | |
| **8.** | 26 Fevral Xocalı faciəsi və 8 may Şuşanın işğalı günüylə və Ramazan bayramı ilə bağlı tədbir və ehsan süfrəsi təşkil edilmişdir. | Keçirilən tədbirlərdən 43 nəfər miqrant yararlanmışdır. |
| **9.** | 18 Mart tarixində Novruz bayramı münasibətilə AzQAC-ın Gənclər və könüllülər şöbəsinin təşəbbüsü və Miqrasiya şöbəsinin təşkilatçılığı ilə Azərbaycan dili kursunda iştirak edən miqrant ailələrə bayram şənliyi təşkil olunmuşdur.<br>19-21 Mart tarixlərində Novruz bayramı münasibəti ilə "Qaçqın, Qadın və Gənclər" mərkəzində Azərbaycan dili kursunda iştirak edən miqrantlar üçün bayram şənliyi keçirilmişdir. | Bayram şənliyində 62 nəfər iştirak etmiş, TİSA məktəbi tərəfindən 50 ailəyə bayram xonçaları verilmişdir<br><br>Onlara şirniyat süfrəsi açılmış, 13 ailəyə bayram sovqatı və qurban əti verilmişdir. |
| **10.** | Mart ayında "Qaçqın, Qadın və Gənclər" mərkəzində miqrant uşaqlar üçün psixoloq tərəfindən "Sağlam həyat tərzi " mövzusunda seminar keçirilmişdir. | 52 miqrant bu seminardan yararlanmışdır. |
| **11.** | May ayında "Qaçqın, Qadın və Gənclər" mərkəzində miqrantlar üçün "Psixoloji dəstək" mövzusunda seminar keçirilmiş, həmçinin, İran klinikasına pulsuz müayinə və dərman verilməsi təşkil edilmişdir. | Seminarda 45 miqrant iştirak etmişdir.<br>8 miqrant isə pulsuz müayinə və dərmandan yararlanmışdır. |
| **12.** | İyun ayında ötən il üçün Azərbaycan dili kursunda iştirak edən şagirdlərə sertifikatlar verilmiş və çay süfrəsi təşkil edilmişdir. | 44 nəfərə sertifikat verilmiş və 60 nəfərlə tədbir keçirilmişdir. |
| **13.** | Ramazan bayramı münasibətilə miqrant ailələri üçün ərzaq bağlaması təşkil edilmişdir. | 14 miqrant ailəsinə bayram sovqatı verilmişdir. |
| **14.** | Sentyabr ayında ən çox ehtiyacı olan ailələrə və şəxslərə AzQAC-ın məxsusi yardım paketi(yorğan, döşək, mətbəx dəsti, gigiyenik paket) ianə edilmişdir. | 2 misirli miqrant ailəsi məxsusi yardım paketindən faydalanmış, hər şeyini itirmiş 1 nəfər pakistanlı turistə və 1 misirli miqranta isə ilkin olaraq fərdi pul yardımı edilmişdir. |
| **15.** | 14. 09.2018-ci il tarixində AzQAC-ın "Miqrasiya" şöbəsinin müdiri Məmməd Kətanov, Miqrasiya şöbəsinin təhsil üzrə əməkdaşı, miqrantların Azərbaycan dili müəllimi Sona Hacıyeva, İctimai layihələr koordinatoru Mətanət Qaraxanova Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) QQGM-də işgüzar görüşdə olmuşlar. | Görüşdə Azərbaycan dili kursları barədə yeniliklər və nəticələr, QQGM-in AzQAC-la gələcəkdə müştərək əməkdaşlığının daha da inkişaf etdirilməsi yollarında mütəmadi dəstək imkanları və ortaya çıxan anlaşılmazlıqların aradan qaldırılması yolunda qüvvələrin və imkanların səfərbər edilməsi barədə müzakirələr aparılmışdır. |
| **16.** | Oktyabr ayında Azərbaycan dili kursunun açılışı olmuşdur. | Açılışda 70 nəfər miqrant iştirak etmiş, çay süfrəsi təşkil edilmiş və onlara dərs ləvazimatı paylanmışdır. |
| **17.** | İl ərzində miqrasiya mövzusunda keçirilən 40 seminarda və "Yeni il" ilə bağlı keçirilən tədbirlərdə AzQAC-ın Miqrasiya şöbəsinin mütəmadi iştirakı təmin olunmuşdur. | AzQAC-ın Bakı RM-in Sabunçu RB və Qadınlar Cəmiyyətinin təşkilatçılığı ilə 21 miqrant uşağa yeni il hədiyyəsi və nahar təşkil edilmişdir.<br>Seminarlarda əldə olunan məlumat və təcrübə yerli şöbələrin apardığı işlərdə tətbiq olunmuşdur. |

## Silahlara qarşı mübarizə





| MƏQSƏD | | |
|---|---|---|
| ***2005-ci ildən başlayaraq Azərbaycan Respublikasının qərb bölgəsində yerləşən rayonların, vaxtilə qızğın döyüş meydanı olmuş indi isə soydaşlarımızın məskunlaşdığı ərazilərində (kəndlərdə, icmalarda) uşaqları mövcud olan mina və müharibənin partlayıcı qalıqları (MPQ) ilə rastlaşma risklərindən qorumaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Litva Respublikasının Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində Qazax rayonunun Kəmərli kəndinin Xanbağı məktəbində "Mina Risklərinin Azaldılması" strategiyasına aid ənənəvi layihəsinə uyğun olaraq "Təhlükəsiz Oyun Meydançası" tikilmişdir. Açılış mərasimi fevral-mart 2019-cu ildə təşkil olunacaq. | Görülən işin nəticəsi olaraq kənddə 200-dən artıq uşağı mina təhlükəsindən qorumuş olduq. |
| **2.** | İl ərzində AzQAC-ın rayon bölmələri respublika üzrə mina hadisəsi baş vermiş ərazilərdə mina qurbanları ilə görüşərək onlarla qiymətləndirmə işi aparmış və əldə olunan nəticələri AzQAC-ın Miqrasiya şöbəsinə təqdim etmişlər. | 2018-ci il ərzində 5 mina hadisəsi baş vermişdir. |
| **3.** | 2018-ci ildə AzQAC və BQXK arasında Silahlara Qarşı Mübarizə istiqamətində fəaliyyətlər həyata keçirilmişdir. Ağdam rayonunda minaya düşərək, əlil olmuş ailə başçıları ilə qiymətləndirmə işi aparılmışdır. | 20 mina qurbanı arasında qiymətləndirmə işi aparılmış, nəticədə, 3 mina qurbanı Beynəlxalq Qızıl Xaç Komitəsinin kriteriyalarına uyğun olaraq yardım üçün seçilmişdir. |




## Axtarış Xidməti

**Məqsəd.**

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Fəaliyyət**

- Mütəmadi olaraq ərizəçilərin qəbulu keçirilmişdir;
- II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı;
- Miqrasiya ilə bağlı axtarış;
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi;
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı;
- AX-nin fəaliyyəti barədə RM və RB-ri vasitəsilə yayımı;
- Tələbələr üçün seminar – 74 nəfər

**Dövlət strukturları ilə əməkdaşlıq**

- Az.QAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

  1) Daxili İşlər Nazirliyi
  2) Dövlət Təhlükəsizlik Xidməti
  3) Nazirlər Kabineti nəznində Dövlət Arxiv İdarəsi
  4) Bakı şəhər İcra Hakimiyyəti
  5) Respublika Prokurorluğu
  6) Hərbi Komissarlıq
  7) Qaçqınlar üzrə Ali Komissarlıq
  8) Qaçqın və Məcburi köçkünlər üzrə dövlət Komitəsi
  9) Telefon – məlumat xidməti

  və sair dövlət təşkilatları. (təhsil, kecmiş iş yerləri və s.)

**Görüşlər.**

İl ərzində mütəmadi olaraq BQXK-nin axtarış üzrə nümayəndələri ilə görüşlər keçirilmişdir.

Fövqəladə Hallara hazırlıq, Fövqəladə Hallar zamanı və Fövqəladə Hallardan sonra Axtarış Xidmətinin fəaliyyəti mövzusunda cəbhə xətti və Fövqəladə Halların baş verməsi ilə əlaqədər risk altında olan rayon bölmələrinin sədrləri üçün təlim keçirilmişdir.

**Fəaliyyətimiz**

İl ərzində Bakı Biznes və Koopersiya Kolleci, Qərb, Xəzər, Xarici Dillər, Texniki və Turizm Universitetlərindən AzQAC-ın Baş Qərargahına təcrübə mübadiləsi keçmək üçün gələn 74 nəfər tələbəyə Axtarış Xidməti üzrə seminar keçirilmişdir.

İl ərzində AzQAC-ın Axtarış xidmətinə müraciət edən 8 nəfər- İraq və Suriya itginlərinin yaxınlarına axtarışla bağlı məsləhətlər verilmişdir.

**Regional Mərkəzlər / rayon bölmələri**

İl ərzində Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları paylanılmışdır. Həmçinin, bir çox rayon bölmələrinin sədrləri ilə axtarış işi ilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

**Statistik hesabat**

**2018-ci il ərzində daxil olmuş sorğular:**

**Açılmış işlər: 29**

**Azərbaycan daxili - 13**

| | |
|---|---|
| Miqrasiya ilə bağlı axtarış | 6 |
| Represiya münaqişəsi nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 |
| Miqrasiya ilə bağlı axtarış (sənədlərin axtarışı ) | 1 |
| Sosial axtarış | 5 |
| **Cəmi:** | **13** |

**Ölkə hüdudlarından kənarda - 16**

| | |
|---|---|
| Miqrasiya ilə bağlı axtarış | 6 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 4 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 1 |
| Represiya münaqişəsi nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 |
| Əfqanıstan müharibəsinə dair sənədlərin axtarışı | 2 |
| Dəfn yeri | 2 |
| **Cəmi:** | **16** |

**2018-ci il ərzində bağlanmış işlər - 27**

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 8 müsbət | 13 mənfi |
| Miqrasiyaya dair sənədlərin axtarışı | - | 1 mənfi |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | - | 1 mənfi |
| Sosial axtarış | 1 müsbət | - |
| Represiya münaqişəsi nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 müsbət | 1 mənfi |
| Əfqanıstan müharibəsinə dair sənədlərin axtarışı | 1 müsbət | |
| **Cəmi:** | **11** | **16** |

## Maliyyə

Cari il ərzində gəlirlərin təhlili göstərir ki, AzQAC üzrə ümumi gəlirlər 2018-cı il üçün 1 567 246 manat təşkil edir. Dövlət Büdcəsindən Az QAC-a ayrılan 812978 AzN ümumi gəlirin 51.9 % təşkil edmişdir. 2018-ci ildə həyata keçirilmiş "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" (Avstriya QXC, Avstriya İnkişaf Agentliyi, Avropa Birliyinin maliyyə dəstəyi) layihəsi davam etdirilmişdir. Bu proqram 79786.37 EURO (167470 manat) təşkil edərək ümumi gəlirlərin 10.7 %-dir. Hesabat dövründə RM və RB üzrə 820000 manat üzvülük haqqı hesablanmış və 582608 manat üzvülik haqqı yığılmış yəni 37.2% icra olunmuşdur.

2018-cı il ərzində AzQAC-ın xərcləri 1,565 993 manat təşkil etmişdir. Xərclərin 619284 AzN əmək haqqı o cümlədən 193694 AzN miqdarında DSMF və gəlir vergisi tutularaq ödənilmişdir. 2018-ci il ərzində Moldovaya 2030 USD (4060 manat) yardım köçürülmüşdür. 1337 manat isə Az QAC-ın əməkdaşlarının icbari sığorta xərcləri təşkil etmişdir. Hesabat dövründə yerli bölmələrin büdcə ilə hesablaşmalarına nəzarət olunmuş, bölmələrin DSMF və yerli vergi orqanları ilə hesablaşmalarının qanunvericiliyə uyğun qaydada aparılması işi müşahidə olunmuşdur.

## 2018 yanvar-dekabr

| **Gəlirlər bölməsi** | | **manatla** | **faiz** |
|---|---|---|---|
| o cümlədən (cəmi) | | 1,567,246.00 | 100% |
| **1.** | AR Büdcə vəsaiti | 812,978.00 | 51.9 % |
| **2.** | Üzvlük haqlarından (respublika üzrə) | 582,608.00 | 37.2 % |
| **3.** | Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsi (Avstriya QXC-ADA) | 167,470.00 | 10.7 % |
| **4.** | Fundraising və gəlirgətirmə (ianə qutularından daxilolmalar), müəssisə və təşkilatlardan, ayrı-ayrı şəxslərdən, şəxsi ianələrdən olan daxilolmalar | 2,500.00 | 0.2% |
| **5.** | Sair gəlirlər | 1,690.00 | 0.1% |

| | | **2018** | |
|---|---|---|---|
| **Xərclər bölməsi** | | **manatla** | **faiz** |
| o cümlədən (cəmi) | | 1,565,993.00 | 100% |
| **1.** | Əmək haqqı | 619,284.00 | 39.5 % |
| **2.** | DSMF,Gəlir vergisi və həmkarlar | 193,694.00 | 12.4 % |

| | | | |
|---|---|---|---|
| **3.** | İşçilərin icbari sığortası | 1,337.00 | 0.1% |
| **4.** | Moldovaya İANƏ | 4,060.00 | 0.3% |
| **5.** | Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsi (Avstriya QXC-ADA) | 167,470.00 | 10.7 % |
| **6.** | Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar, əmək haqqı xərcləri (respublika üzrə) | 389,844.00 | 24.9 % |
| **7.** | Sair (bank xidmətləri, təsərrüfat xərcləri, müavinətlər, ezamiyyə xərcləri və inzibati xərclər) | 187,804.00 | 12.0 % |
| **8.** | AzQAC könüllülərinin il ərzində göstərdikləri xidmətin təqribi dəyəri (respublika üzrə) | 2,500.00 | 0.2% |




